Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

İLHAM RƏHİMLİ

# AZƏRBAYCAN TEATR ENSİKLOPEDİYASI

ÜÇ CİLDDƏ

## I CİLD

Azərbaycan Milli Kitabxanası

BAKI – 2016

## BƏDƏL BƏY BƏDƏLBƏYLİ

*(Bədəlbəyov. 1875, Şuşa – 1932, Bakı). Maarif xadimi.*

Bədəl bəy Bəşir oğlu Bədəlbəylinin nəsilləri Qacarlar sülaləsi ilə bağlıdır.



Üzeyir bəy Hacıbəylinin xalası oğludur. Görkəmli Azərbaycan bəstəkarı, dirijoru, ilk milli baletimiz «Qız qalası»nın müəllifi Əfrasiyab Bədəlbəylinin və məşhur musiqili teatr rejissoru Şəmsi Bədəlbəylinin atasıdır. Üzeyir bəy Hacıbəylinin və Zülfüqar bəy Hacıbəylinin opera və operettalarının əksəriyyətində qadın partiyalarının ilk və gözəl ifaçısı Əhməd Ağdamskinin (Bədəlbəyli) böyük qardaşıdır.

Bədəl bəy Bədəlbəyli ilk təhsilini Şuşada alıb. Sonra Qori Müəllimlər Seminariyasını bitirib (1895). Uzun illər Bakıda pedaqoji fəaliyyət göstərib. Bakının aşağı dağlıq məhəlləsində rus-türk (rus-tatar) məktəbi açıb. «Bədəl bəy məktəbi» kimi tanınan həmin təhsil ocağından görkəmli ziyalılar çıxıb. Hazırda həmin binada 6 saylı orta məktəb yerləşir. Şagirdlərə hesab, musiqi, coğrafiya, ədəbiyyat fənlərindən dərs deyib. «Nicat» mədəni-maarif cəmiyyətinin teatr dəstəsində yaxından çalışıb. «Səfa», «Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli qardaşlarının müdiriyyəti» teatr truppalarında səmərəli təşkilati işlər görüb.

*Müxtəlif truppalarda ifa etdiyi əsas rollar:* Dobçinski («Müfəttiş», Nikolay Qoqol), Aşıq Vəli («Hacı Qənbər», Nəcəf bəy Vəzirov), Gürcü xan («Nadir şah», Nəriman Nərimanov), Ohan yüzbaşı, Əziz ağa («Hacı Qara» və «Lənkəran xanının vəziri», Mirzə Fətəli Axundzadə), Məcnun, Məcnunun atası və İbn Səlam («Leyli və Məcnun», Üzeyir bəy Hacıbəyli).